# Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"ni "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1340-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, N 3, maddə 239; 2008, N 1, maddə 4, N 3, maddə 168, N 8, maddə 722, N 11, maddə 970; 2009, N 1, maddə 11, N 4, maddə 221, N 7, maddə 532, N 12, maddə 983; 2010, N 2, maddə 83, N 3, maddə 193, N 7, maddə 625; 2011, N 2, maddə 85, N 3, maddə 178, N 11, maddə 994; 2012, N 4, maddə 287; 2013, N 2, maddə 121, N 5, maddə 513, N 9, maddə 1044, N 12, maddə 1551; 2014, N 9, maddə 1063; 2015, N 2, maddə 119, N 9, maddə 978) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 9.18-ci bənddə "xitam və bərpa" sözləri "bərpa və Azərbaycan Respublikasının vətəndaşlığından çıxma" sözləri ilə əvəz edilsin.
2. Aşağıdakı məzmunda 9.18-2-ci bənd əlavə edilsin:

"9.18-2. şəxsin Azərbaycan Respublikasının vətəndaşlığını itirməsi ilə bağlı məsələyə baxılması üçün məhkəməyə müraciət etmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2016-cı il*